# ÖZBƏKİSTANLA MÜNASİBƏTLƏRİN YENİ YOL XƏRİTƏSİ

**Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri iki dost və qardaş ölkə arasında münasibətlərin genişləndirilməsi prizmasından xüsusi əhəmiyyət daşıyır. Qarşılıqlı təmaslar uzunmüddətli gələcəyə yönəlik yeni strategiya hazırlanmasını stimullaşdıracaq.**



AQŞİN KƏRİMOV

İyulun 2-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycana dövlət səfərinə gəldi.

Bu səfər iki dost və qardaş ölkə arasında münasibətlərin genişləndirilməsi prizmasından xüsusi əhəmiyyət daşıyır. Səfər proqramından aydın oldu ki, Azərbaycan Prezidenti İlham Əliyev özbəkistanlı həmkarı ilə strateji tərəfdaşlıq əlaqələrinin hazırkı vəziyyətini və gələcək inkişaf perspektivlərini müzakirə edib. Eyni zamanda təhlükəsizlik, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi yolları nəzərdən keçirilməsi gündəmdə olub.

Bu, iki dövlətin uzunmüddətli gələcəyə yönəlik yeni strategiya hazırlamasını stimullaşdıracaq. Ona görə də bu mühüm səfər Azərbaycan və Özbəkistan arasında yüksələn xətt üzrə inkişaf edən münasibətlərin növbəti təzahürü kimi qiymətləndirilməlidir.

## QİYMƏTLİ STRATEJİ TƏRƏFDAŞLIĞIN MƏZMUNU

Qeyd edək ki, dövlət səfəri ölkələr arasındakı münasibətlərin ən yüksək məqamını ifadə edir. Bu cür səfərlər ölkələr arasındakı münasibətlərin aliliyini göstərir, onun strateji tərəfdaşlıq və dostluq əlaqələrinə söykəndiyinin dəlili kimi çıxış edir. Dövlət səfəri çərçivəsində imzalanan sənədlər ikitərəfli əməkdaşlığın hüquqi bazasını möhkəmləndirir və qarşılıqlı münasibətlərin gələcək inkişafı üçün yol xəritəsi rolunu oynayır. Diqqət yetirmək lazımdır ki, Şavkat Mirziyoyev Azərbaycana səfəri zamanı:

- Prezident İlham Əliyevlə təkbətək görüş keçirdi;
- Bakıda "Özbəkistan" parkının təməli qoyuldu;
- Özbəkistanın Azərbaycandakı səfirliyinin yeni binasının açılışında iştirak etdi;
- Azərbaycan lideri ilə Xəzər dənizinin sahilində yerləşən "Sea Breeze" istirahət mərkəzində oldu.

Səfərin bu sıx qrafiki Azərbaycan-Özbəkistan əlaqələrinin qarşılıqlı maraqların inkişafını yüksəldən dəyərə malikdir.

Belə qiymətli strateji tərəfdaşlığın məzmunu liderlərin Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın ikinci iclasında və prezidentlərin mətbuata birgə bəyanatlarında da ifadə olundu.

Şuranın iclasından sonra prezidentlər Azərbaycan ilə Özbəkistan arasında imzalanmış sənədlərin mübadiləsi mərasimində iştirak etdilər.

Mərasimdə Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının Qərarını imzaladılar. Bundan başqa "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol xəritəsi" də daxil olmaqla bir neçə mühüm sənəd mübadilə edildi.

## PREZİDENTLƏRİN BƏYANATLARINDAKI ŞTRİXLƏR

Prezidentlərin mətbuata birgə bəyanatları əlaqələrin çoxşaxəli olmasını, iki ölkənin bir çox sahədə, o cümlədən təhlükəsizlik sahəsində strateji tərəfdaşlıq səviyyəsində perspektiv əməkdaşlıq imkanlarını göstərir. İqtisadi, təhsil, siyasi, təhlükəsizlik, energetika sahələrində birgə layihələr çox şeydən xəbər verir.

Bu əlaqələr Azərbaycanın Mərkəzi Asiyadakı, Özbəkistanın isə Cənubi Qafqazdakı qarşılıqlı maraqlarını dəstəkləyəcək. Azərbaycan və Özbəkistan Mərkəzi Asiya ilə Cənubi Qafqazı vahid geosiyasi imkanlar müstəvisində nəzərdən keçirərkən strateji birlik, dostluq, etimad və qarşılıqlı faydaya söykəyirlər. Bu, regionda sülhün, sabitliyin, təhlükəsizlik və inkişafın təmin edilməsində mühüm rol oynayır.

## REGİONAL İNTEQRASİYANIN ƏSAS PLATFORMALARINDAN BİRİ

Göründüyü kimi, Azərbaycan-Özbəkistan əlaqələri regionda əməkdaşlığın və inteqrasiyanın əsas platformalarından biri kimi getdikcə daha böyük rol oynayır. Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə inkişaf etdirdiyi strateji əlaqələr Türk Dövlətləri Təşkilatının (TDT) inkişafına əhəmiyyətli töhfə verir. Bu münasibətlər təşkilatın prioritetlərinə – siyasi, iqtisadi və təhlükəsizlik sahələrində qarşılıqlı dəstək və birgə təşəbbüslərin reallaşdırılmasına tam uyğundur.

Bu əməkdaşlıq modeli Türk Dövlətləri Təşkilatının regional və beynəlxalq arenada daha səmərəli, vahid və çevik aktor kimi çıxış etməsinə şərait yaradır. Beləliklə, Azərbaycan-Özbəkistan münasibətləri təşkilatın strateji prioritetlərinin həyata keçirilməsi üçün mühüm nümunə təşkil edərək TDT-nin güc olmaq istiqamətinə təkan verəcək.

Bununla da Azərbaycan Mərkəzi Asiyada yüksəliş dövrünə qədəm qoyur və prosesi Türk Dövlətləri Təşkilatının prioritetləri ilə uyğunlaşdıran strategiyanı dövriyyə daxil edir. Özbəkistanın Cənubi Qafqazdakı təmsilçiliyi isə Azərbaycanın vasitəsilə reallaşdırılır. Bu mənada Azərbaycanla Özbəkistan arasındakı sıx əməkdaşlıq Ermənistanın da regiondakı mövqeyinə gələcəkdə təsir göstərəcək. Ermənistan ya özünü TDT-nin strateji vizyonuna daxil edilmiş Zəngəzur dəhlizinin açılmasına razı salmalıdır, ya da geniş əməkdaşlıq bucağından kənarda qalmalıdır. Ona görə də yaranan imkanlar Ermənistanın izolyasiyadan çıxması üçün mühüm çağırış kimi şərh oluna bilər.

